هفته‌ده ۲ دفعه نشر اولونان سیاسی، علمی و اقتصادی تورک غزته‌سیدر.

محل اداره‌سی: گنجه ده آذربایجان اداره‌سی

بر نسخه‌سی ۱ روبله‌در

# آذربایجان

تورک و اسلامجه ... [illegible]

آذربایجان ... [illegible]

درج اولونمایان اوراق ... [illegible]

آبونه شرائطی: ... گنجه‌ده
۳۰ روبله، آیلغی ۸ روبله
باشقه یرلر ایچون:
۴۰ روبله، آیلغی ۱۰ روبله

## — اعلان —

[illegible]

[illegible]

داخلیه ناظری ... [illegible]

### قسم رسمی

## حکومت امرلری

زراعت نظارتندن

— [illegible] ... ۱۹۱۸ ... [illegible]

— آذربایجان جمهوریتنک ... [illegible]

[illegible]

## آذربایجان حکومتنک قرارلرندن

۱۵ ایلول ۱۹۱۸

۶۵ — [illegible]

۶۶ — ۱۶ ایلولده ۱۹۱۸ ... [illegible]

۶۷ — [illegible]

۷۰ — [illegible]

[illegible]

امضا: حکومت ایشلرینک مدیری
ر. ... [illegible]

### قسم غیر رسمی

## گنجه ۸ ذی الحجه

[illegible]

Çərşənbə, 1 yanvar 1919-cu il, nömrə 76

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 28 rəbiüləvvəl sənə 1337. 1 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri**

Nömrə 23

Şamaxı əhli tələbə Ağalar İskəndərli həmin 1334 sənəsi kanuni-əvvəlin [dekabrın] 23-ündən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat [məktub] xidmətçisi təyin edilir.

Nömrə 24

Tatyana Kazantseva həmin 1334 sənəsi kanuni-əvvəlin 22-sindən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində baş məzbətə mühərrirliyinə [protokol katibliyinə] (stenoqrafist) təyin edilir.

Nömrə 25

İslam oğlu Süleyman Nuri həmin 1334 sənəsi kanuni-əvvəlin 20-sindən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Nömrə 26

Şişə şəhəri əhli Səhra xanım Paşazadə həmin 1334 sənəsi kanuni-əvvəlin 23-ündən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Nömrə 27

Ağası Məhəmmədov həmin 1334 sənəsi kanuni-əvvəlin 18-indən etibarən Azərbaycan Məclisi-Məbusan İdarəsində xidmətkar (kuryer) təyin edilir.

Nömrə 28

Məhəmmədəli Səfərov həmin 1334 sənəsi təşrini-saninin [noyabrın] 16-sından etibarən Məclisi-Məbusanın cələsələrində [iclaslarında] məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 29

Xəlil İbrahimov həmin 1334 sənəsi təşrini-saninin 16-sından etibarən Məclisi-Məbusan İdarəsində məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 30

Hənəfi Zeynallı həmin 1334 sənəsi təşrini-saninin 19-undan etibarən Məclisi-Məbusan cələsələri məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 31

Əbdül Əbdülzadə həmin 1334 sənəsi kanuni-əvvəlin 7-sindən etibarən Məclisi-Məbusan cələsələri məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 32

Ələkbər Heydərzadə həmin 1334 sənəsi kanuni-əvvəlin 15-indən etiba-

rən Məclisi-Məbusan cələsələri məzbətə mühərrirliyinə təyin edilir.

Nömrə 33

İzmail Dmitriyeviç Ostromenski həmin 1334 sənəsi kanuni-əvvəlin 26-sından etibarən Məclisi-Məbusanda rus məktubatı [rusca yazışmalar] müdiri təyin edilir.

Nömrə 34

Rübabə xanım Tağızadə həmin 1334 sənəsi kanuni-əvvəlin 29-undan etibarən Məclisi-Məbusan İdarəsində təhrirat xidmətçisi təyin edilir.

Nömrə 35

Yefimya Yakurovna İvanova həmin 1334 sənəsi kanuni-əvvəlin 29-undan etibarən Məclisi-Məbusan İdarəsində makina yazan məmuru [makinaçı, maşinistka] təyin edilir.

## BAKI, 1 KANUNİ-SANİ [YANVAR] 1919

### Keçmiş fəlakətlər və gələcək ümidlər

Bu gün miladi-Məsihinin [İsanın doğumunun] 1919-cu sənəsinə qədəm qoyduq. Keçən 1918-ci il Azərbaycan türk və islamlarının tarixində ən rəngarəng, qarışıq və müğləq [dolaşıq] bir səhifə işğal edəcəkdir [tutacaqdır]. Zira, həmin ildə Azərbaycan türkləri bir müddət mütəmadi həyat ilə məmat [ölüm] arasında qalıb, axırda həyatdan naümid olarkən, birdən həyat günəşi onların üzünə güldü. Rəzil və əxlaqsız düşmənlərin təhti-təzyiqində [təzyiqi altında] paymal olduqları [əzildikləri] vaxt, azərbaycanlılar öz həmcinsləri olan Osmanlı türkləri tərəfindən böyük bir müavinət [yardım] görüb, onların fədakarlığı sayəsində sahili-nicata [xilas sahilinə] çatdılar və bununla elan etdikləri istiqlaliyyətlərini əldə saxlamağa müvəffəq oldular. Türklərin müavinəti olmasaydı, Azərbaycan və onunla bütün Qafqaz, bolşeviklər və daşnak təhlükəsi altında olub, buradakı türklər tamamən məhv olub gedərdilər. İrəvan, Bakı və Şamaxı hadisatı [hadisələri] bizə bunu aydınca göstərdi.

Azərbaycan türklərini bir çox fəlakətdən sonra sahili-nicata çıxaran 1919-cu il, aləmşümul [bütün dünyanı əhatə edən] qanlı Cahan müharibəsinə dəxi xitam verdi. Mütarikə hüsula gəldi [atəşkəs hasil oldu] və bunun sayəsində insanlar bir qədər dincəlməyə müvəffəq oldular. Cahangirlik [imperializm] iddiasında olub da "militarizm" əsasına istinad edən Almaniya dövləti məğlub olub, "ufaq millətlərin müqəddəratı üçün müharibəyə girişdik" kəlməsi şüarları olan Etilaf [Antanta] Dövlətləri qalib gəldilər. Həmin şüarın qövldən feilə [sözdən işə] gəlməsi üçün Etilaf Dövlətləri bizim məmləkətə dəxi gəlib, bolşevizm bəlası ilə çarpışan Rusiyanın im-dadına yetmək üçün buranı özlərinə üssülhərəkə ittixaz etdilər [baza seçdilər].

Azərbaycan türk və islamlarının düşməni olan ənasir [ünsürlər] Cahan müharibəsi ilə Rusiya İnqilabi-kəbiri [Böyük Rusiya inqilabı] ortalığa atdıqları şüara rəğmən Azərbaycanın istiqlaliyyətinə zidd gedib, bu barədə hər dürlü təşviq və təhrikatda [təhriklərdə] bulundularsa da, lakin hürriyyətpərvər Amerika, İngiltərə və Fransa millətləri nümayəndə-

ləri[nin] xətti-hərəkatı həmin ənasirin öz batil niyyətlərində nomid [ümidsiz] olduqlarını göstərdi və bir an "ixtilaflı məsələlər Cahan Sülh Konfransında həll olunacaq" deyə, o vaxtadək yalnız bir Azərbaycan Hökumətini etiraf [qəbul] edib, ona müavinətdə bulunmalarını vəd etdilər.

Türklərin müavinəti Azərbaycan islamlarını və onların istiqlaliyyətini **maddiyyən müvəqqəti olaraq** təmin etdi isə, Müttəfiqlərin böylə müavinət və hüsn-rəğbətləri Azərbaycan istiqlaliyyətinin **mənəvi** cəhətini təmin edib, onun **daimi surətdə** paydar olması [yaşaması] üçün bizə ümid verir.

İştə, keçən 1918-ci ildə istiqlalımız kəndimiz tərəfindən elan edildisə, ümidvarız ki, yeni 1919-cu ildə istiqlalımız özgələr tərəfindən dəxi etiraf və təsdiq olunar.

## LƏNKƏRAN FACİƏSİ

Bakı şəhəri İslam Ordusu tərəfindən alınmamış olsaydı və Bakı quberniyası şəhərlə bərabər, Allah göstərməsin, "Sovetlər" əlində qalsaydı, bilirsinizmi binəva müsəlmanların başına nələr gələrdi?! "Hürriyyətpərəst"lərin "idareyi-anarşiyyə"si [anarxiya idarəsi] altında həqarət, rəzalət, əziyyət, zülm və sitəm kimi məhz müsəlmanlara qarşı rəva görülən "mərhəmətlərin" bərəkətindən, zənn etmirəm ki, Bakıda müsəlman namına bir kəs qalmış olaydı. Bir tərəfdən "Sovetlər" başında olan "sosialist"lərin idarə işində göstərdikləri cəhaləti, digər tərəfdən həmin "sosialistlər"i əllərində oyuncaq və aləti-məsxərə etmiş olan hiyləkar və xunxar [qaniçən] daşnakların ibraz etdikləri [göstərdikləri] fitnə və şeytənəti [şeytanlığı] müsəlmanları bir halətə salmışdı ki, yaşamaq imkanı qalmamışdı. Şükürlər olsun bizi yaradan xaliqə ki, "hikməti-siyasiyyəsi" [siyasi müdrikliyi] qətl və qarətdən ibarət olan bu mənhus idarənin təhəmmülfərsa [dözülməz] ömrü ümum Bakı müsəl-manlarının bilkülliyə [tamamən] məhv və tələf olacağı müddət ərzincə uzun çəkməyib, qəhrəman İslam Ordusunun şanlı qılıncı ilə kəsildi və Bakı müsəlmanları azad edildi.

Bakı ilə bərabər, Bakı quberniyasında olan Quba, Göyçay, Salyan və "bə'dəz xərabiyi-Bəsrə" olsa da Şamaxı dəxi cahil, müstəbid "hürriyyətpərəstlər"in və erməni makiavellərinin pənceyi-zalimanələrindən [zülmkar pəncələrindən] xilas edilmək üzrə xoşvaxt və xoşbəxt oldular. Lakin minlərcə təəssüflər olsun ki, bu azadlıq səadəti bütün Bakı quberniyasına şamil olmayıb, hamını xoşbəxt edə bilmədi. Xoşbəxtlər arasında bədbəxt qalanlar dəxi oldu.

O bədbəxt qalanların birincisi, məlumunuz olduğu üzrə, Lənkərandır və Lənkəran uyezdidir.

Bu bədbəxt uyezd və onun bədbəxt müsəlmanları bu günə qədər biganələr [yadlar] əlində qalıb nizamsız, qanunsuz və zalımanə bir idarənin bütün ağırlıqlarını zəif boyunlarında çəkməyə məcburdurlar.

Salyan və Bakı alınandan bəri buranın binəva müsəlmanları nicat yaxınlığı ümidi ilə çırpınan qəlblərində bu ümidi bəsləməklə bərabər, səbirsizlik nəticəsi

olaraq hər dəm bir qəzetələrimiz sütunlarını və idarələrimiz qapılarını dəxi istimdad [yardım] fəryadı ilə doldurub, nicat tapmış olan qardaşlarının diqqətini fəlakətli hallarının şəraiti-təhəmmülfərsasına [dözülməz şəraitinə] doğru cəlb etməyə çalışırdılar. Lakin bunların fəryadları biyaban üzərində [səhrada] yol azmış olan bir yolçunun sədayi-istimdadı [imdad fəryadı] kimi cavabsız qalıb, səslərinə səs verən olmayırdı.

Lənkəran – Azərbaycanın bir hissəsidir. Taxıl, meşə, balıq və sairə kimi sərvətləri nəzərə alınmayıb, ümum Azərbaycan dövləti xəzinəsi üçün bir köpüklük mənfəəti olmasa da, burada yaşayan qardaşlarımızın himayəsi Azərbaycan dövlətinin boynunadır. Biz Lənkəran müsəlmanlarının biganələr və yadlar əlində cürbəcür zülüm və fəlakətlərə məruz qaldığına qeydsiz nəzərlə baxa bilmərik, indiyə qədər də baxmamışıq. Onların fəryadlarını eşitmişik, fəqət səslərinə səs vermək, tezliklə imdadlarına yetişmək və onları fəlakətdən qurtarmaq işində bir taqım mümaniətlər [maneələr] qarşısında məəttəl qalmağa [gözləməyə] məcbur olmuşuq. Bu işdə bizim bir səhlənkarlığımız olmuşsa, o da bu mühüm məsələ xüsusunda Parlamanımızda hələ indiyə qədər söz açılmamasıdır. Bunun günahı isə ümum Parlaman əzalarımızın [üzvlərimizin], baxüsus [xüsusilə] Lənkəran məbusunun [millət vəkilinin] boynunadır ki, sitəmdidə [zülm görmüş] vətəninin xilası xüsusunda bu günə qədər heç bir təşəbbüsdə bulunduğu müşahidə edilməmişdir...

İndi isə, zənn edirəm ki, daha qarşımızı kəsən "rəsmi" bir mümaniət qalmayan kimi, Lənkəranı biganələr əlindən qoşun gücü ilə xilas etmək məcburiyyəti də qalmadı. Bu məsələ, general Tomsonun bu axırkı intibahnaməsi [bəyanatı] ilə həll olunub getdi.

Hürriyyətpərəstlikdən əlavə bu qarqaşalıq [qarışıqlıq] içində səthi bir nəzərlə də olsa həman dəm doğrunu yalandan, düzü əyridən, pakı napakdan seçmək qabiliyyətinə dara [malik] olan bu ingilis generalı Azərbaycan türk və islamlarına qarşı həqiqi münasibatını tezliklə təyin edib, Azərbaycanı Azərbaycan Hökumətinə tapşırdı və tapşırdıqdan sonra köməyini də əlavə olaraq elan etdi.

Qoy, düşmənlərimizin içi od tutub yansın! Qəzetələrində bu xüsusda ağızlarına gələni deməklə büxl [paxıllıq] və həsəd atəşi içində qıvrılıb yandıqlarını bildirməklə, "hürriyyət və insaniyyət" şüarları altında istibdad və şeytənət amalı gizlətmiş olduqlarını təkrar-təkrar isbat etsinlər! Bunlarla işimiz yoxdur, yandıqlardan istər lap canları çıxsın. Biz general həzrətlərinin bu təsdiqnaməsindən istifadə etməliyik. Zatən generalın əmrini yerinə yetirməliyik. İngilis demokratiyası [xalqı] və ingilis hökuməti adından Azərbaycanın müqəddəratını azərbaycanlıların öz əllərinə verən general Tomsonun bizə dair bəşarət [muştuluq] və düşmənlərimizə qarşı ölüm xəbəri dərəcəsində olan bu əmri, bütün Azərbaycan torpağını, binaənileyh [deməli], Azərbaycanın hissəsi olan Lənkəranı dəxi öz hökumətimizin təhtiidarəsinə mühəvvəl edir [idarəsinə tapşırır].

Bundan sonra artıq fikir lazım de-

yildir. Tezliklə lənkəranlı qardaşlarımızın imdadına yetişib biganələr pəncəsindən xilas etməklə, canlarını azad və könüllərini şad edək. Lənkəran şəhəri və Lənkəran uyezdi idarələri başına öz məmurlarımızı tezliklə göndərək. Ancaq bunu tapşıraq ki, o məmurlar biganə və xudsər [özbaşına] xarici məmurları kimi rus, erməni və müsəlman arasına təfavüt qoymaqla bir milləti əzib digər milləti hakim vəziyyətdə qoymasınlar. Azərbaycanımızın hər yerində olduğu kimi, orada da hamıya bir nəzərlə baxsınlar. Kin və küdurətə məhəl [yer] verməsinlər. Qanla kəsiləcək bir işi general Tomson sözlə kəsdi və Azərbaycan Hökumətinə kömək vədə etməklə bu sözə razı olmayanların cəzaya veriləcəyini dəxi anlayanlara bildirdi.

Bəs tez olub məmurlarımızı göndərək. Lənkəran müsəlmanlarının bir bu qədər fəlakət çəkdikləri artıq kifayətdir.

*Hacıbəyli Üzeyir*

## HƏR İŞƏ ÇARƏ VARDIR

Yeni Heyəti-Vüzəra Rəisi [Nazirlər Kabinetinin Sədri] Fətəli Xan həzrətləri nitqinin bir yerində dəmiryol məmurları barəsində bu aşağıdakı sözləri demişdir:

"Yollarda özümüzdən qulluqçumuz olmadığından, xaricilər dəxi bilirlər ki, onlar getsələr yol fəna olacaqdır. Ona görə də bildiklərini edirlər."

Filvaqe [həqiqətən də] dəmiryollarda əhalidən alınan rüşvətlərin həddü hesabı yoxdur. İş bir dərəcəyə gəlmişdir ki, hətta Parlamanın rus üzvləri bu xüsusda şikayət yapmışlar. Bu cür işlər Azərbaycan məxluquna [xalqına] böyük bir sədmə [zərbə] və hətta xəyanətdir. Böylə xəyanətləri təkcə dəmiryollarımızdan yox, bəlkə sair müəssisələrdən də bəkləməliyiz. Bunun səbəbi isə hazırsızlıq və adamsızlıqdır. Dünənki zabastovkalar bunu bizə sübut etdi ki, bəzi ünsürlər kefləri istədikləri zaman tamam məişətimizi belə dayandıra bilərlər. İş bu minval ilə davam edərsə, rüşvətlərin, xəyanətlərin qabağı alınmazsa, hökumət idarələri bir oyun-oyuncaq halını alar.

Əcəba, bu uçurumlara bir çarə yoxdurmu? Əlbəttə, vardır. Lakin gələcəkdə. Bu şərtlə ki, indidən işə şüru oluna [başlana].

Hamıya məlumdur ki, bu gün bir çox doktor, mühəndis, müəllim, texnik, teleqraf məmuru və bunlar kimi bir çox ərbabi-ixtisasa [mütəxəssislərə] ehtiyacımız vardır. Bu mütəxəssisləri yetişdirmək üçün aramızda heç bir məktəbimiz yoxdur və bu məktəbləri hüsula gətirmək üçün illər yox, bəlkə əsrlər lazımdır. Böylə olan surətdə çarəmiz nədir?

Bəzi mütəxəssisləri müvəqqəti kurslarda və bəzilərini əcnəbi darülfünunlarında [univeristetlərində] yetişdirmək mümkündür. İştə çarə! İndiyə qədər ürəfamız [ziyalılarımız] Rusiya darülfünunlarında təlim tapırdılar. Lakin bu gün inqilab pozğunluğu həman darülfünunların qapılarına böyükcə qıfıllar asdırmışdır. Böylə olan surətdə, Rusiya asayişi bərpa olunana qədər maarif ehtiyaclarımızı Yevropa darülfünunlarında rəf' etməyə [aradan qaldırmağa] məcburuz. Sülh Konfransına göndəriləcək

nümayəndələrimizin bir vəzifəsi də məşhur Yevropa darülfünunlarında Azərbaycan tələbələrinə təlim üçün yol açdırmaqdır. Buna dair bir proqram, bir düsturüləməl [təlimatnamə] tərtibi Maarif Vəzarətinin [Nazirliyinin] borcudur. İngilis, Firəngistan və Almaniya darülfünunlarının hər birinə ildə neçə tələbə və hangi şöbələrə qəbul olunması indidən gərək aşkar olsun, ta ki, nümayəndələrimiz də məsələyə dara olaraq [məsələdən xəbərdar olaraq], haqq və ixtiyar qazanılması üçün də Yevropada çalışsınlar.

Bundan əlavə, bir çox ehtiyacımız vardır ki, onların rəf'i [aradan qaldırılması] üçün kənara adam göndərməyə heç lüzum yoxdur. Məsələn, maşınçı, teleqrafçı, konduktor, icraçı, feldşer, memar, kimyaçı, texnik və mexanik kimi xidmətçiləri yetirmək üçün birər müvəqqəti kurslar açmaq lazım gəlir ki, bunu da yenə Maarif Nəzarəti öhdəsinə götürməlidir.

Əlhasil, hər xidmətçi, hər vəzifə daşıyan, müqabilində [qarşısında] amadə [hazır] bir namizəd görməlidir ki, vəzifəsini də kamali-sədaqətlə [tamamilə düzgün] ifa etsin. Yoxsa, meydanı rəqabətdən xali [boş] görmüş həriflərin xəyanətinə heç bir vəchlə sədd çəkmək mümkün deyil. Bu bir öylə əhəmiyyətli məsələdir ki, Heyəti-Vüzəranı [Nazirlər Kabinetini] gərək həmişə düşündürsün. Bu barədə qəflət olunarsa, şəksiz acı-acı səmərələrə [nəticələrə] rast gələcəyiz və övlad müqabilində də [övladlarımızın qarşısında da] məsuliyyət altında qalarız!

Bu məsələdə hökumət ricalı [hökumət adamları] ilə bərabər, əhali və ələlxüsus [xüsusilə] ürəfamız [ziyalılarımız] da çalışmalıdır. Lakin bunların vəzifəsi başqadır. Dünənki zavastovka ittihad [birlik] və ittifaqın səmərəsini bizə aşkar etdi. Zavastovkaçılara, hər yerdə olduğu kimi, fəhlə sinfi əsas və istinadgah olmuşdur. Bunların içində müsəlman fəhləsi də az deyildir. Lakin bu biçarələr mədəniyyətcə sairlərindən geri olduqlarına [görə], bir çox məsələlərdə aldanırlar, vəzifələrini anlamayırlar. Ürəfa qismindən adamlar lazımdır ki, fəhlələrimizi birləşdirsinlər, haqlarını anlatsınlar. Həmçinin əkinçilərə, tacirlərə, hökumət müəssisələrindəki xidmətçilərə, müəllimlərə, mühəndislərə, doktorlara və sair əsnafımıza [siniflərimizə, zümrələrimizə] birər ittifaq yapmaq lazımdır ki, haqlarını anlayıb özgələrinə alati-təzvir [fitnə-fəsad törətməkdə vasitə] olmasınlar.

Haydi, cavanlarımız! Siniflər arasına gediniz, fəaliyyətinizi də göstəriniz!

Şükürlər olsun ki, hələ aralıqda üç ittifaq görürüz:

1) Türk texnikləri;

2) Mərkəzi Mütəəllimlər [Tələbələr] Komitəsi və:

3) Müsəlman Tələbələri İttifaqı.

Bizi maraqlandıran, texniklərin ədəbiyyat və tarix kursları açmalarıdır. Hələ “Azərbaycan tarixi və ədəbiyyatı” mövzusunda referat [məruzə] da oxumuşlardır!

İttifaqın faydasını hələlik mütəəllimlərimiz anlamışlardır. Ümidvaram ki, sair əsnaflarımız da anlarlar. Ürəfamız üçün də böyük bir meydan açılar ki, nə ucu var, nə də bucağı!

*Fərhad Ağazadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**6-cı iclas**

Məclisi-Məbusanın 6-cı iclası dekabrın 30-da saat birdə doktor Ağayevin sədarəti [sədrliyi] və Əhməd Cövdətin katibliyi ilə vaqe oldu. Sədr iclası açaraq ruznameyi-müzakiratı [müzakirə gündəliyini] bu qərar ilə elam edir [bildirir]:

1 - Parlaman əzasından Mehdi bəy Hacıbababəyov ilə Hacı Kərim [Sanılı] əfəndilərə 10 gün məzuniyyət;

2 - Gürcüstan Parlamanının təbriki;

3 - "Əhrar" firqəsinin ərzihalı [ərizəsi];

4 - Son həbslər haqqında istizah [sorğu];

5 - Əfvi-ümumi [amnistiya] layihəsi.

Müzakirəyə başlamadan əvvəl, sədr bəyan edir ki, əfvi-ümumi layihəsinin müəllifləri layihəni yenidən nəzərdən keçirmək və tərtib vermək qəsdi ilə geri götürmüşlərdir.

**Ağaoğlu Əhməd bəy** - *(Növbətdən xaric səs alaraq)* Əfəndilər! Qəzetədə general Tomsonun bəyannaməsini oxudunuz və əhəmiyyətini təqdir etdiniz. Bu bəyannamə, həqiqətən şayani-qeyd və təqdirdir [qeyd edilməyə və bəyənilməyə layiqdir]. Onun məzmunu, millət və hökumətimiz üçün şayani-təbrik [təbrikə layiq] bir müvəffəqiyyətdir. Daha Ənzəlidə Müttəfiq dövlətlər nümayəndələrilə müzakirə olunarkən, Azərbaycan bəzi müşkülat çıxara bilərdi və öz paytaxtını müdafiəyə müqtədir bir halda idi. Fəqət Azərbaycan üç böyük dövlət ilə qovğa çıxarmaq fikrini hələ ibtidadan [lap əvvəldən] bərtərəf etmişdi [aradan qaldırmışdı]. Çünki, bu dövlətlər böyük müharibəyə girmədən əvvəl, ufaq millətlərin azadlığı və onların hüququnu müdafiə uğrunda müharibəyə girişdiklərini mütəmadiyyən [daimi olaraq] elan etməkdə idilər. Daha sonra məzkur [adı keçən] hökumətlər Amerika Cəmahiri-Müttəhidəsi [Amerika Birləşmiş Ştatları] rəisi-cümhuru [prezidenti] Vilsonun dünyaya atmış və bəşəriyyətə təbşir etmiş [muştuluq vermiş] olduğu 14 maddəni kəndilərinə bir şüar, bir bayraq qərar verərək meydana çıxdılar. Buna görədir ki, İngiltərə, Amerika və Fransa nümayəndələri ilə Ənzəlidə müzakiratda bulunan zaman biz bilirdik ki, onlar gəldikləri yerlərdə yaşayan millətləri əzmək üçün gəlməyib, o millətlərin haqq və mövcudiyyətlərini təmin edəcəklərdir. Biz buna əmin idik. Ona görə də azərbaycanlılar qovğanı bərtərəf edib də Müttəfiqlərin şərəf və namusuna inanaraq, vətənimizin geniş bucaqlarını onların üzərinə açdılar. Şimdi Müttəfiqlərin nümayəndələri burada bulunurlar. Mən bunu qeyd etmək istəyirəm ki, Müttəfiqlər qüvvəsinin rəisi Tomson, Ənzəlidə vermiş olduğu sözlərin heç birindən bu vaxtadək inhiraf etməmişdir [boyun qaçırmamışdır].

General Tomsonun son bəyannaməsi mənim bu sözlərimin doğruluğunu isbat edir. Parlaman əzasının [üzvlərinin] nəzəri-diqqətini bəyannamənin iki mühüm nöqtəsinə cəlblə, bu iki nöqtənin Parlaman və bütün millət tərəfindən də qeyd olunmasını təmənna edirəm. Tomson cənabları Azərbaycan dairəsində qanuni, məşru [leqal] bir hökumət olmaq üzrə yalnız Azərbaycan Hökumətini tanıdığını qeyd edir və ona müavinət və müza-

hirətdə bulunacağını [kömək edəcəyini və dəstək olacağını] bildirir.

Əfəndilər! Azərbaycan mövcudiyyətini mühafizə yolunda bu, birinci qədəmdir. İşbu qədəmi təbrik edirəm. *(Alqış)* Haqq heç vaxt paymal olmaz [tapdalanmaz]. Müttəfiqlər nümayəndələri hələ Ənzəliyə gələrkən bizim barəmizdəki həqiqətlər, böhtan və iftiralarla zəhərlənmişdi. Amma yanımıza gələrkən bizi başqa bir şəkildə gördülər, gəlib yaxından tanıdılar. Sülh və müsalimət [barışıq] tərəfdarı kimlər olduğunu anladılar; bizi tanıdılar. Şimdiki müvəffəqiyyət dəxi həman bunun nəticəsidir. Bizə qarşı çıxarılan süni xəbər və provakasyona biz cavab vermədik, çünki haqlı olduğumuza əmin idik. Şimdi nəticəsini də görürüz. Azərbaycanın istiqlaliyyəti yolunda köksümüzü gərərək daima eyni mətanət, eyni səbat, eyni əzmkarlığı göstərərək müstəqil yaşamağa layiq və müstəhəqq [haqqı çatan] olduğumuzu isbat edəcəyiz. *(Alqış)*

**Məhəmməd Əmin Rəsulzadə** - Möhtərəm Əhməd bəy həzrətləri tərəfindən şayani-qeyd [qeyd edilməyə layiq] görülən məsələ, həqiqətən calibi-diqqət [diqqəti cəlb edən] və Məclis tərəfindən qeyd olunacaq mühüm məsələlərdir. Hələ ingilis və sair Müttəfiqlər qoşunu paytaxtımıza daxil olan zaman, Azərbaycan paytaxtında yaşayıb da "Azərbaycan" fikrinə müariz [zidd, müxalif] və ancaq qüvvəyə tabe olaraq məqami-təslimdə bulunanlar [təslim olanlar], kənardan başqa qüvvə gələrkən ruhlanıb təərrüzə [hücuma] başladılar. Bir çox ünsürlər onların gəlmələrindən ruh alaraq, Azərbaycanın kökünü baltalamağa başladılar. Əhməd bəy buyurduğu kimi, azərbaycanlılar özlərinin haqlı olduqlarına və Müttəfiqlərin öz qövllərinə [sözlərinə] sadiq qalacaqlarına əmin olduqlarından, Azərbaycan paytaxtında baş qaldıran intriqa və fəsadlardan müztərib idilərsə də [əziyyət çəkirdilərsə də], naümid [ümidsiz] deyildilər. Lakin nə qədər ümidvarlıq hasil olsa da, bundan böylə Azərbaycanı tanıyanların bir daha iş görməyəcəklərinə inanmaq xətadır. Əvvəlinci günlərdə biz burada xof [qorxu] ilə rəca [ümid] arasında idik. Özümüzün haqlı olduğumuza görə ixtilal çıxarmağa qadir idiksə də, yenə ixtilal çıxarmadıq. Zira hüququmuza əl uzadılmayacağına inanırdıq. Lakin əhvalın böylə olduğunu yalnız iş başında duranlar və siyasilər bilirlər. Amma camaat kütləsi əhvaldan bixəbər olduğundan, Azərbaycan fikri əleyhində bulunanların hərəkətlərini görüb şübhədə idilər. Müttəfiqlərin vürudundan [gəlişindən] sonra birinci günlərdə vüqu bulan hərəkətlər şübhəni daha da artırdılar. Çünki burada baş qalxızmış ünsürlər Azərbaycanın istiqlaliyyəti əleyhinə iş görmək istəmişlərdi. İngilis və sair Müttəfiq nümayəndələri Ənzəlidə olduqları zaman bizimlə dost olmayan mənbələrdən başqa məlumat və fikirlər üzərinə bəyannamə nəşr etdilər. Tomsonun bəyannaməsi Müttəfiqlərin həqiqi əhvaldan bixəbər olduğunu göstərirdi. Fəqət sonradan həqiqəti-hala [həqiqi vəziyyətə] bələd olmaq nəticəsində çıxardığı və nəşr etdiyi [yaydığı] ikinci bəyannaməsi birincini rədd etdi. Bu bəyannamədə Qafqaziya məsələsinin Ümumi Sülh Konfransında həll olunacağı işar [qeyd] edildi. Bu bəyannamə, azərbaycanlıların sülh və

müsalimət [əmin-amanlıq] tərəfdarı olduqları yaxından öyrənilmiş və təcrübə nəticəsində atılmış bir qədəm idi. Bu qədəm atıldı və bu gün həqqi-məşruəyə [qanuni haqqa] layiq yeganə bir hökumət olmaq üzrə Azərbaycan Hökumətinin tanındığını, məəlməsarr [şadıq ki], eşidiriz. Bu gün ingilis və müttəfiqləri nümayəndəsinin böylə bəyanatı və bizə qarşı münasibətini böylə açıq təyin qılması, məmləkətimizdə mövcud olan anlaşılmazlığı rəf' edər [aradan qaldırar]. Bu gün burada qonaq şəklində olan ingilis və sair Müttəfiqlər bizə müzahirət [köməklik] göstərirlər və bizim istiqlaliyyətimizi istəməyənlər bu gündən etibarən aşkar görəcəklər ki, buradakı qüvvələr Azərbaycanı təsdiq etməyə meyli olan bir qüvvətdir. Xaricdən gələn bir qüvvəyə istinadla Azərbaycanı dağıtmaq istəyənlər gördülər ki, o qüvvə Azərbaycan əleyhində deyildir. Şimdi xarici qüvvələrdən müzahirət almaq xəyalı ilə Azərbaycanı yıxmaq istəyənlər artıq görəcəklər ki, o xəyal puçdur. Azərbaycan xalqı öz istiqlaliyyətini var qüvvəsilə müdafiə və mühafizə edəcəkdir və bu da ona qüvvətlər verərək bir dəfə cızmış olduğu istiqlaliyyətimizi, o sitareyi-əməlimizi [arzu ulduzumuzu] müdafiə etmək məsələsində bizə bir daha qüvvət verir, imanımızı artırır. General Tomson tərəfindən nəşr edilmiş bəyannamə bu yolda bizə daha böyük bir ümid verir ki, bu gün bir ingilis komandanı tərəfindən qəbul olunan yeganə məşru bir hökumət, Sülh Konfransında nümayəndələrimizin çalışmaları sayəsində o komandanlıqların hökumətləri tərəfindən də etiraf və təsdiq ediləcəkdir. *(Mərkəzdən və soldan alqışlar)*

**Əhməd Cövdət** - Əfəndilər! Əhməd bəy Ağayev cənabları ingilis komandanı general Tomson tərəfindən verilmiş bəyannamə haqqında danışdılar və bu bəyannaməni təqdirə bizi dəvət etdilər. Nə olmuş, əfəndim?

İngilis komandanı öz qoşunu ilə buraya gəlmiş, məhəlli [yerli] hökuməti tanıyır. Əcəba, bunu general öz rəyi iləmi etmiş və bizə qarşı səmimiyyət göstərmişmi, yaxud bunun dərin bir əsası vardır? İştə o dərin əsaslar barəsində burada bir neçə kəlmə söz söyləməliyəm.

Məlumdur ki, general Tomson İngiltərə Hökumətinin bir əsgəri [hərbi] nümayəndəsidir. Hərb zamanı bu qədər qanlar töküldü, Müttəfiqlər demokratiyası [xalqı] öz səsini ucaldıb xırda millətlərə hürriyyət və azadlıq istədi. Əlbəttə Müttəfiqlər nümayəndəsi olan general Tomson, "hər millət kəndi müqəddəratını həll etmək haqqına malikdir" - deyən demokratiyanın arzusunu da [qulaq ardına] verə bilməz və Azərbaycan istiqlaliyyətini qəbul etməyirəm, tanımıram deyə bilməzdi. Çünki general Tomsona bu əmri verən ingilis və bütün cahan demokratiyasıdır; bütün cahanın həqiqi demokratiyası ona əmr edir ki, xırda millətlərin hüququnu etiraf etsin, hökumət və istiqlaliyyətlərini tanısın. *(Soldan və mərkəzdən alqış)*

Əfəndilər! İngiltərə generalı bu gün bizim hüququmuzu tapdarsa, demokratiya səsini qaldırıb ingilis və ümumcahan demokratiyasına der ki, məgər millətlərin hürriyyət və hüququ haqqındakı sözlər tamamilə yalanmış? Əvət, əfəndilər, Tomson İngiltərə demokra-

tiyasının əmrini yerinə yetirməlidir. *(Alqışlar)*

Bir millət öz müqəddəratını öz əlinə alıb müstəqillən tərzi-idarə qurarsa, bu generallar dəxi o millətin hüquq və istiqlaliyyətini etiraf məcburiyyətindədirlər. Ona görədir ki, təqdir ediləcək bir şey varsa, o da xırda millətləri əsarətdən xilas edən İngiltərə və bütün cahan demokratiyasıdır. Buna binaən [buna görə], biz İngiltərə və ümumcahan demokratiyasına salam etməliyiz. *(Alqış)*

Sabah Avropaya azim olacaq [yola düşəcək] nümayəndələrimiz bizim bu salamımızı həman demokratiyaya yetirərək söyləməlidir ki, indi bu xırda millət dəxi öz müqəddəratını öz əlinə alıb müstəqillən öz həyatını qurmağa başlamışdır və bu təşəbbüsündə həman demokratiyanın müavinət və müzahirət göstərəcəyinə əmin olur.

*Bundan sonra sədr cənabları Heyəti-Rüəsa [Rəyasət Heyəti] tərəfindən böylə bir formula təklif edir:*

"Azərbaycan Məclisi-Məbusanı 29 kanuni-əvvəl [dekabr] tarixli iclasında general Tomsonun bəyannaməsini kamali-məmnuniyyətlə dinləyərək, növbədəki məsələlərin müzakirəsinə keçir."

Təklif ittifaqi-ara ilə [yekdilliklə] qəbul olunur. Bədəhu [sonra] Mehdi bəy Hacıbababəyov və Hacı Kərim Sanıyevin ərizələri oxunaraq bunlara 10 gün məzuniyyət verilir.

Növbədə Gürcüstan Parlamanı tərəfindən alınmış təbrik teleqrafıdır. Teleqrafın məzmunu budur:

"Hələ dekabrın 10-da Gürcüstan Parlamanı Azərbaycan Parlamanının güşadını [açılışını] təbrik etməyi təhti-qərara almışdır. Fəqət teleqraf münasibatının [əlaqələrinin] hazırkı şəraitindən olmalıdır ki, bu teleqraf Azərbaycan Parlamanına vüsul olmamışdır [çatmamışdır]. Lazım bilirəm həman teleqrafın məzmununu təkrar edəyim: Gürcüstan Parlamanı səmimi şadlıq və dərin bir məmnuniyyət hissilə Azərbaycan Parlamanının güşadını təbrik və təhniyət [mübarəkbadlıq] edir. Azərbaycanın öz hüquqi-siyasiyyə və milliyyəsinə [milli və siyasi hüquqlarına] malik olmasında Gürcüstan Parlamanı hər iki millətin amal və arzusunun feilən hüsuluna və mehriban qonşuluq münasibatının möhkəmləşməsinə rəhn [əsas] görür.

Gürcüstan Parlamanı Rəisi: Çxeidze."

*(Şiddətli alqışlar)*

*Bundan sonra "Əhrar" firqəsi tərəfindən edilmiş olan təklif oxunur. Təklif bundan ibarətdir:*

"Azərbaycan Parlamanı Rəyasətinə:

1917 sənəsi "Qafqaz təqvimi"ndən alınan rəqəmlərə görə Şəki şəhərində 52.343, qəzasında isə 133.505 nüfus [əhali] var ki, cümlətanı 185.848 nüfus olur. Bunlardan yalnız islam əhalisi 145.209 nəfərdir. Axırıncı ərzaq siyahısına baxılarsa, bütün əhali 200.000-i mütəcavizdir [keçir]. Qabaqkı seçkilərdə bu qəzanın haqqı nəzərə alınmadığı kimi, bu axırıncı dəfə də islam əhalisindən 3 əvəzinə 2 nümayəndə dəvət edilmişdir. Binaənileyh [ona görə] biz təklif ediriz ki, Şəki qəzasından təcili surətdə bir nümayəndə dəxi dəvət edilsin."

Bu məsələ, Heyəti-Rüəsanın [Rəyasət Heyətinin] təklifinə görə Etibarnamə komissiyasına verilir.

Növbətdə: son həbslər haqqında

sosialistlər tərəfindən idxal [daxil] edilən istizahdır [sorğudur].

İstizahın məzmunu:

Bu günlərdə Bakı şəhərində bəzi siyasi firqələrin bir qaç [bir neçə] əzası [üzvü] təqsirnamə verilmədən həbs edilmişlərdir. Bu həbslər Azərbaycan polis məmurları vasitəsilə icra olunmuşdur. Bu əhvalat Hökumətə məlumdurmu və əgər məlum isə səbəbi nə olmuşdur?

**[Məhəmməd] Məhərrəmov** - Möhtərəm Parlaman əzaları! Necə ki məlumdur, neçə gün əvvəl bəzi firqələrin nümayəndələri həbs edilib Ənzəliyə göndərilmişdir. Demokratiyanın bu xüsusdakı təşəbbüsləri bir nəticə verməmiş və nəhayət, iş Bakıda böyük bir tətilə müncər olmuşdur [gəlib çıxmışdır]. Bu tətilin Bakı və Azərbaycan üçün zərərli olduğu məlumdur. Biz Sosialist firqəsi deklarasiyasında demişdik ki, müqəssirlərin təqsirnaməsi 24 saat zərfində [müddətində] özlərinə təqdim edilməlidir, yığıncaqlar açıq olmalıdır. Bu mühüm maddələr pozulmuşdur. Tətil şimdi qurtarmışsa da, gələcəkdə vüquu [baş tutması] ehtimal xaricində deyildir. Binaənileyh, biz təklif ediriz böylə işlərin qabağını almaq üçün Parlaman bu məsələni geniş surətdə müzakirə və öz fikrini bəyan etsin.

Bəzi natiqlər məhbusların azad edildiklərini, digərləri istizah vaxtının keçdiyini və sairləri göstərərək, nəticədə istizahın qəbulu məsələsi araya gəlir. Sədr məsələni iki qismə təqsim edir [ayırır]:

1 - İstizah qəbul edilsinmi, ya yox?

2 - İstizah təcilimi hesab olunsun, ya qeyri-təcili?

Səsə qonulduqda qeyri-təcili olmaq üzrə istizahın qəbulu əksəriyyəti-ara [səs çoxluğu] ilə qət olunur.

Ruznameyi-müzakirat [müzakirə gündəliyi] bununla qurtararaq, Sədr cənabları Heyəti-Rəyasət namından [adından] təklif edir ki, Məclisi-Məbusan nizamnaməsi tərtib və qəbul olu-nanadək Məclis özü üçün bir əksəriyyət (kvorum) qərar versin. Heyəti-Rəyasət əksəriyyət olmaq üzrə bir süls [üçdə bir] təklif edir. Bu məsələ uzun mübahisəyə bais olur. Nəhayət, ətraflı məlumat toplamaq və məsələni bir daha nəzərdən keçirmək üçün Heyəti-Rüəsa təklifi geri götürür.

İclas qapanmaq üzrə ikən Qara bəy [Qarabəyov] "Qruziya" qəzetəsini göstərərək bəyan edir ki, məzkur [adı çəkilən] qəzetə Parlamanımızın fövqəladə iclası haqqında verdiyi məlumatında böhtan və iftiralar yazmışdır. Qara bəy qəzetənin bir qismini oxuyur və deyir ki: "Mən burada böylə söz danışmamışam. Buna protesto edirəm. Qoy Parlamanımız da şəhadət versin ki, mən bu sözləri deməmişəm."

Sədr: Heyəti-Rüəsa təsdiq edir ki, bu qəzetəyə yazılan sözləri Qara bəy Parlamanda deməmişdir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Serbiya və Qaradağ**

Qaradağ Parlamanı, Qaradağ ilə Serbiyanın birləşməsini rəsmi surətdə elan etmişdir.

**Rusiyanın tələfatı**

Petroqraddan Kopenhaqa verilən xə-

bərlərə görə, müharibə zamanında Rusiyanın tələfatı 9.150.000-dir. Bunlardan 1.700.000 nəfəri ölüb, 1.450.000 şikəst, 3.500.000 yaralı və 2.500.000 əsirdir.

**Vilson Londonda**

Vilson Londona varid olub [gəlib], təntənəli bir surətdə istiqbal edilmişdir [qarşılanmışdır].

**Vilsonun səfər yoldaşları**

"Corc Vaşinqton" paraxodunda Avropa və Asiyanın siyasi və iqtisadi əhvalından dürüst xəbərdar 23 nəfərdən ibarət münsif komitəsi vardır.

**Yaponlar Cənubi Rusiyada**

İstanbuldan xəbər verirlər ki, varid olan [gələn] yeddi yapon gəmisi Qara dənizə çıxıb Rusiya sahillərinə azim olmuşdur [yönəlmişdir]. Feodosiyada yapon əsgərləri gözlənməkdədir.

## AZƏRBAYCAN GƏNCLƏRİNƏ

Bir bax! Nə gözəl boyanmış əlvan
Dörd guşəli ol nigari-tənnaz;
Baxdıqca lətif, pak, qurnaz
Göy, qırmızı, səbz, qəlbi rəxşan.

Parlaq günəşin şüayi-pakı
Düşdükcə ona olur münəvvər.
Qan içrə hilalı saf, ənvər,
Qəlbində nə qorxu var, nə bakı.

Azərlərin atəşin dilində
Baxdıqca ona səfası artar.
Türk millətinin hilalı parlar
Teymur ilə Mürtəza belində.

Türk oğluna evçilik yaraşmaz,
Türk yavrusu canla, qanla oynar.
Qurşun yesə ölməz, ölsə söynər
Qalxar, yürüyər, qoşar, yavaşmaz.

Türk oğlu vətən deyib qan ağlar,
Al bayrağını tutub usanmaz.
Türkün ucadır hilalı sonmaz,
Həq nuru qapanmayıb da parlar.

Qalx, ey vətən oğlu, gəl hizaya,
Durma, çabuq ol, silaha sarmaş.
Çıx avcı xətinə, haydi marş, marş
Qaldır uca bayrağın səmaya.

*Aşurbəyli İsa (Həqqi)*

## GÜRCÜ-ERMƏNİ MÜHARİBƏSİ

*(Gürcüstan ərkani-hərbindən [qərargahından])*

Kanuni-əvvəlin [dekabrın] 25-ində müharibə etdikdən sonra əsgərlərimiz Daqet-Xaçın kəndini işğal etmişlərdir. Şüləver yanındakı müharibə davam edir. Cəbhənin qeyri yerlərində sakitlikdir.

**Hökumətdən istizah [sorğu]**

Gürcüstan Parlamanı üzvü Veşapeli Parlaman Sədri Çxeidzeyə müraciətlə, gələcək birinci iclasda Gürcüstan Hökumətinə böylə bir istizah verilməsini xahiş etmişdir:

*"Gürcüstan Hökumətinə məlumdurmu ki, Ermənistan Hökumətinin siyasi nümayəndəsi Camalyan, müharibə elan edildiyi gündən indiyə qədər haqqı olmadığı halda Tiflisdə qalıb, Gürcüstanın mənafeyi əleyhinə olaraq,*

*əsgərlərimiz arxasında düşmənanə hərəkatda bulunmaqdadır? Hərgah bu əhvalat hökumətə məlumdur, bu barədə nə kimi tədbirlər ittixaz etmək [tədirlər görmək] niyyətindədir?"*

**Həbslər**

Hökumət binagüzarlığı [sərəncamı] ilə Tiflisdə olan Rus Milli Şurası binasında axtarış olmuşdur. Axtarış əsnasında Milli Şura binasında müşavirəyə cəm olan 200 nəfər erməni həbs edilmişdir.

**Axtarış**

Kanuni-əvvəlin [dekabrın] 24-ündə Erməni Cəmiyyəti-Xeyriyyəsi binasında axtarış olmuşdur. Şəxsiyyətini isbat edici sənədə malik olmayan cavan adamlar həbsə alınmışlardır.

**İngilis-fransız heyəti**

Bu yaxınlarda İngiltərə-fransız heyətinin bir hissəsi İrəvana, digər hissəsi Batuma gedəcəkdir.

## BİR MÜNASİBƏTLƏ

Sülh Konfransına göndərilən İran heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] şəhərimizə vürudunu [gəlişini] eşidib də, qəzetəmiz rəsmi hökumət qəzetəsi olmaq üzrə bəndeyi-acizi [aciz bir bəndə olan məni] mühərrir sifəti ilə heyəti-mürəxxəsə hüzuruna göndərdi ki, əvvəla mərasimi-xoşamədini yerinə yetirib [xoş gəldiniz deyib] və rəsmi hökumət qəzetəsinin bu heyət vüruduna əhəmiyyət və etina göstərdiyini bildirib, bə'd [sonra] bir para bizcə və zənn edirik ki, İran Hökumətincə də vacib ədd [hesab] edilən məsələlər xüsusunda məlumat alıb qəzetəmizdə dərc edək.

Lakin möhtərəm heyəti-mürəxxəsənin başında duran zəvat [şəxslər] bizimlə mülaqat [müsahibə] və söhbət etməyi, bilmirik kəsri-şan hesab etdilərmi [şanlarına layiq görmədilərmi] və ya nə isə, qədim bürokratlara məxsus bir əda ilə qəbul buyurmadılar. Konsul Səidülvüzəra cənablarının vəsatətinə [vasitəçiliyinə] rücu [müraciət] etdiksə də, yenə mülaqat şərəfindən məyus qaldıq.

İran vüzərası [vəzirləri] ilə mülaqatdan məqsəd, İranın övzayi-haliyəsindən [indiki vəziyyətindən] xəbər bilmək, İran dövlətinin Azərbaycan istiqlalı xüsusunda rəy və mülahizələrindən xəbərdar olmaq və İranın Sülh Konfransında nə kimi məsələləri irad və iltizam edəcəyini anlamaq idi. Bu kimi məsələlərin biz azərbaycanlılarca və Azərbaycanda yaşayan İran əhlincə nə dərəcədə haizi-əhəmiyyət [əhəmiyyətə malik] olduğu müsəlləmdir [aydındır]. Biz də bunu bilmək istəyirdik. Yoxsa vəzirlərlə qurudan-quruya söhbət etməyə nə vaxtımız vardır, nə də həvəsimiz.

*Ayn*

## BAKI XƏBƏRLƏRİ

* Məlumdur ki, müvəqqəti olaraq Gəncədən Bakıya gətiriləcək ərzaq məmnu [qadağan] idi. Şimdi Azərbaycan dəmiryolları müdiriyyəti Ərzaq Nəzarətinə müraciətən rica etmişdir ki, işbu qanun ləğv edilsin. Zira Bakı və Gəncənin ərzaq işlərinin layiqli surətdə getmə-

məsini artırır.

* Bələdiyyə İdarəsi, vergi komitəsinə təklif etmişdir ki, Bakı dairəsindəki ictimai tamaşaxanalardan "hərbi naloq" miqdarında vergi alsın.

* Azərbaycan post və teleqraf müəssisələrində Ararat (Ermənistan) Cümhuriyyətinə məktubat qəbul edilir.

* Dün İran heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Parisə Sülh Konfransına azim olmuşdur [yola düşmüşdür].

**Hərbi məhkəmədə**

Kanuni-əvvəlin [dekabrın] 17-sində Hərbi məhkəmə atidə mündəric əşxasın [aşağıda dərc edilən şəxslərin] işlərinə baxıb, böylə qətnamə çıxarmışdır:

1) Yaqub Silikov Bakı küçələrində güllə atdığı üçün 1 il həbsə alınır. Qətnamə general Tomson tərəfindən təsdiq edilmişdir.

2) Nikolay İqnatyeviç Bakı küçələrində güllə atdığı üçün 5 il həbsə alınır. Qətnamə general Tomson tərəfindən yüngülləşdirilib 2 ilə təbdil edilmişdir [dəyişdirilmişdir].

3) İvan Samoylov piyan olub Bakı küçələrində güllə atdığına görə 2 il həbs cəzasına məhkum edilir. Qətnamə general Tomson tərəfindən təsdiq edilmişdir.

**Erməni Milli Komitəsində**

Azərbaycan Hökuməti-Cümhuriyyəsi Rəisi-Vükəlası [Baş Naziri] Fətəli Xan Xoyski həzrətləri, Erməni Milli Şurasına müraciət edib, yeni Kabinədə iştirak etməyi təklif etmişdir.

Erməni Milli Komitəsi işbu məsələni 25 kanuni-əvvəl [dekabr] iclasında müzakirə edib qət etmişdir ki, təklifi rədd etsin. İşbu rədd cavabının səbəbləri əvvəllərdə göstərilənlərdir.

**Müttəfiq qoşunlarının vürudu [gəlişi]**

Kanuni-əvvəlin [dekabrın] 30-unda səhər saat 7-də Ənzəlidən "Qırğız" vaporu varid olub [gəlib], Müttəfiq qoşunlarını gətirmişdir.

**Azəbaycan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti]**

Hökumətin Məclisi-Məbusan Heyəti-Rüəsası [Rəyasət Heyəti] ilə bərabər kanuni-əvvəlin [dekabrın] 27-dəki iclasında Ümumi Sülh Konfransında iştirak etmək üçün əsamisi atidə mündəric zəvatdan mürəkkəb [adları aşağıda yazılmış şəxslərdən təşkil olunmuş] bir heyəti-mürəxxəsə intixab edilmişdir [seçilmişdir]:

Məclisi-Məbusan Rəisi Əlimərdan bəy Topçubaşov, Hökumət üzvü Məhəmmədhəsən Hacınski, Məclisi-Məbusan əzası [üzvləri] Əhməd bəy Ağayev, Şeyxülislamov.

Müstəşarlığa [məsləhətçiliyə] [Məhəmməd] Məhərrəmov, [Miryaqub] Mehdiyev və Ceyhun bəy Hacıbəyov cənabları intixab edilmişlərdir. Heyəti-mürəxxəsə ən yaxın günlərdə azim olacaqdır [yola düşəcəkdir]. Heyət şimdilikdə lazım olacaq məlumatı cəm edir.

**Cüməni bayram etməyə dair**

Əcnəbi fəhlələri (beynəlmillətçilər) mister Valtona bir müraciətnamə verib, cümə gününü bayram etmək barəsində verilən qanunun ləğv edilməsini tələb etmişlər və mister Valton işbu qanunun ləğv ediləcəyinə çalışacağını xəbər ver-

mişdir. Bayram ediləcək günün təyini fəhlələrə mühəvvəl ediləcəkdir [tapşırılacaqdır].

**Müsəlman tələbələrinə**

Bu gün kanuni-saninin (yanvarın) 1-ində Bakı Birinci realnı məktəbi binasında, axşam saat 5-də Bakı müsəlman tələbələrinin iclası təyin edilmişdir. Yoldaşların vaxtında təşrif gətirmələri xahiş olunur.

## ƏRZAQ İŞLƏRİ

**Ətrafdakı kəndlərə düyü paylanacaqdır**

Bakı Şəhər Ərzaq İdarəsi Əhmədli, Keşlə, Zığ, Biləcəri, Binəqədi, Digah, Şağan, Pirşağı, Məhəmmədi, Fatmayı, Türkan, Güzdək, Nardaran, Bilgəh, Xırdalan, Xocahəsən, Buzovna, Qobu, Zirə, Kürkənd, Qala, Şüvəlan, Goradil, Maştağa, Hövsan, Novxanı, Kürdəxanı, Hökməli, Mərdəkan, Bibiheybət və Binə kəndlərinə bu gələn yanvar ayının 2-sindən 8-inəcən Ərzaq Şöbəsinin anbarlarından camaata paylanmaq üçün hər adam başına üç girvənkə hesabı ilə düyü paylayacaqdır. Düyünün girvənkəsi 3 manat 30 qəpikdir.

Ona görə də lazımdır ki, camaatı siyahı edib hazırda nə qədər adam olduğunu adbəad və hər külfətdə neçə nəfər olduğunu iki vərəqdə, yəni iki ədəd siyahıda yazsınlar.

Siyahı vərəqəsinin biri vəkildə qalır, o biri vərəqi nə qədər düyünün pulu eyləyirsə, camaatdan yığılan pul ilə bərabər kəndin vəkili "Natsional" mehmanxanasındakı Ərzaq Şöbəsinə 12-ci otağa verib düyü almaqdan ötrü qəbz (order) almalıdır.

Kəndlərin vəkilləri kənd caamatından düyü almağa şəhadətnamələri olmalıdır. Camaatın siyahı vərəqəsi kənd kəndxudasının imzası və möhrü ilə təsdiq olunmalıdır. Kəndxuda, vəkil və qeyri adamlar, hansılar ki külfətdə olan adamları doğru göstərməyələr, düyünü paylayan vaxt doğruluqca bulmayalar, təftiş olandan sonra əvvəla onlara düyü verilməyəcək və ondan əlavə dava zamanında olan qanuna görə şiddətli cəzaya mübtəla olacaqlar.

Düyü kəndə gələndən sonra kəndxuda və vəkil düyünü siyahı üzü ilə camaatın hüzurunda elan olan qədər, yəni bir adam başına üç girvənkə hesabı ilə düyü paylamalıdır.

* Ərzaq Nəzarəti tərəfindən Əli bəy Zülqədərova icazə verilibdir ki, Gürcüstandan dörd vaqon qənd gətirib Azərbaycan Cümhuriyyətində sərbəst satışa qoysun.

* Ərzaq Nəzarətinə Sabunçu naibikonsulu Şabanzadə tərəfindən ərizə verilibdir ki, Sabunçu-Balaxanı polismeysterstvosunda [polis idarəsində] vəfat edən iranlılar üçün kəfənlik dörd tay bez buraxılsın.

* Dərbənd mövqifində [stansiyasında] vəsiqəsiz üç tay bez tutulubdur. Ərzaq Nəzarəti bu xüsusda həman bezi göndərən Qazıqumuq sakini Mirzə Ramazan oğlunun həbs olunmasına əmr etmişdir. Mirzə Ramazan oğlu hal-hazırda 5-ci polisdə həbsdədir.

* Ərzaq Nəzarəti Quba qəzası qaimməqamına yazıb bildirmişdir ki, Quba

mahalında türklər tərəfindən zəkat təriqi [yolu] ilə yığılan taxılın miqdarını və hansı anbarlarda olmasını xəbər verməklə bərabər, məzkur [deyilən] taxılı Bakıya Ərzaq Nəzarəti adına göndərsin.

* Bakıdan Tiflisə kilsə şamı aparmaqdan ötrü Ərzaq Nəzarəti tərəfindən Anatoli Yefimova icazə verilmişdir.

* Gürcüstandan Azərbaycana mal gətirib sərbəst satışa qoymaqdan ötrü Ərzaq Nəzarəti tərəfindən İsmayıl Məhəmməd oğluna müsaidə verilmişdir.

* Kanuni-əvvəlin [dekabrın] 30-unda Ərzaq Nəzarəti Əbdül Babayevə Tiflisə və Poti təriqi [yolu] ilə Odessaya silyotka [siyənək balığı] aparmağa icazə vermişdir.

## AZƏRBAYCANDA

**Gəncədən bizə yazırlar**

Gəncə Şah Abbas məscidi həyətində, bazar ertəsi saat 10-da, "Mövludi-nəbi" münasibəti ilə təntənəli bir ictima [yığıncaq, tədbir] vaqe olmuşdur və ictimada başqa ruhanilərlə Molla Məhəmməd Axund Pişnamazzadə, Gəncə Bələdiyyə rəisi Ələsgər bəy Xasməhəmmədov, türk mücahidlərindən Mürsəl paşa, Gəncə müsəlman müəllimlərindən bir qaç nəfəri, Məktəbi-Hərbiyyə tələbələri, Mədrəseyi-Ruhaniyyə şagirdləri ilə başqa ibtidai məktəblərin çocuqları hazır idilər. Bunlardan başqa əsnafdan [xırda ticarətlə və sənətkarlıqla məşğul olan adamlardan] dəxi ictimaya təşrif gətirənlər də az deyildi.

Ən əvvəl Mədrəseyi-Ruhaniyyə şagirdlərindən hazırlanmış qayət müntəzəm bir xor dəstəsi milli şərqi söyləməyə başlayır. Əvvəlinci şərqi bitdikdə, mədrəsənin şəriət müəllimi Mir Nəsrulla Seyidzadə, Məhəmməd əleyhissəlamın "mövludu" xüsusunda bir qədər izahat verib, tərcümeyi-halı ilə əhalini aşina edir. Sonra ruhanilərimizdən Hacı Molla Yaqub Baratzadə cənabları hərbiyyə tələbələrini və islamiyyət naminə salamla qarşılayıb "Mövludi-nəbi" münasibətilə hazirunu [orada olanları] təbrik edir və yeni təşkil olunmuş Azərbaycan Hökumətinə sədaqətlə xidmət etmələrini tövsiyə edərək, "Hər kəs bu müqəddəs əsgərlik vəzifəsini buraxıb fərar edərsə, küfrünə hökm olunacaqdır [kafir elan ediləcəkdir]" buyurur.

Baratzadə həzrətlərini mütəaqib [ardınca], müəllim Əziz Musazadə, ictimada hazır bulunanları təbrikdən sonra qısa bir nitq irad edərək [söyləyərək]:

"Hangi bir millət olursa olsun, yaşayıb ideal və arzusuna varmaq üçün maddi və mənəvi qüvvəyə malik olması lazımdır. Həman millətin mənəvi qüvvəsi ziyalılarından ibarətdir ki, bu, elm və mərifət sayəsində meydana çıxacağı şübhəsizdir. Maddi qüvvəsi isə hər dürlü varidatından və birinci dərəcədə mövqe əxz edən [tutan] əsgəri qüvvəsindən ibarət idi."

Bundan sonra Bələdiyyə Rəisi Xasməhəmmədov həzrətləri, haziruna xitabən ümum islam aləmi üçün bu günün müqəddəs bir gün olduğunu söyləyərək, türk qardaşlarımızın Qafqaziyaya gəlmələri və almış olduqları əmrnamə üzərinə ricət etmələri [qayıtmaları] barədə danışırlar.

Bundan sonra üzünü hərbiyyə tələbələrinə tutaraq: "Qardaşlar! Sizin

əsgərlik vəzifəniz ən mühümdür. Zira millətin irz [və] namusunu düşmənlərə qarşı müdafiə və mühafizə edən yalnız sizin süngüləriniz olacaqdır. Qafqaziyada hal-hazırda şanlı Azərbaycan milli bayrağının təməvvüc vurmasını [dalğalanmasını], maarif xüsusunda dövri-intibah [intibah dövrü] başlanmasını, əsgəri təşkilatın müvəffəqiyyətli bir surətdə gedişini gördüyümdən dolayı qəlbimin məsrur [sevincli] olduğunu qafqaziyalı qardaşlarıma elam edirəm [bildirirəm]" deməklə xətmi-kəlam edirlər [sözü bitirirlər].

Ən nəhayət, Axund Molla Məhəmməd Pişnamazzadə həzrətləri əhaliyə qarşı bu günün şərəfini zikr edərək dövri-istibdaddan Qafqaz müsəlmanlarının türk lisanı [dili] uğrunda çəkmiş olduqları cövrü cəfaları və kəndi ana dili üzərinə təlim və tərbiyə almaqdan binəsib olaraq bu xüsusda bir qəfəs içərisində həbs olunduqlarını təsvir edirlər.

Bədəhu [ondan sonra] lisan üstündə bir qədər danışdıqdan sonra hərbiyyə tələbələrinə xitabən:

"Yaşasın o cavanlar ki, rus lisanı üzrə təlim almağı qəti surətdə rədd edərək kəndi ana dillərində təlim almağı qəbul etdilər!" *(Alqış)*

Nəhayət, zati-aliləri xütbə [dini-əxlaqi məzmunlu nitq] oxuyaraq ictimada iştirak edənlərin cümləsi "amin" deyirlər. Xütbə bitdikdən sonra hərbiyyə tələbələrinə komanda edilir. Türk təlimi üzərinə nizam almış bu gənclər, milli şərqi oxuya-oxuya məscidi-camenin böyük qapısından dişarı firlayaraq qayət müntəzəm bir surətdə yürüş edirdilər. Saat bir radələri idi. İşbu mənzərə tamaşaçılara başqa bir zövq, başqa bir ruh yüksəkliyi bəxş edirdi.

*Mirzə Əziz Musazadə*

* Cəbrayıl qəzasının 2-ci dairə müfəttişi xəbər verir ki, 30 nəfərədək müsəlləh [silahlı] erməni, Əfəndilər kəndi sakininin 12 baş qaramalını aparmışlar. Canilər erməni Sor kəndinə qaçıb gizlənmişlər.

* Gorazıllı kəndi sakinləri Həsən Hacı Qurban oğlu və Muxtar Qara oğlu Ağarı kəndindən qayıtdıqları əsnada Noraşen kəndi yanında 6 nəfər müsəlləh [silahlı] ermənilər tərəfindən qarət edilmişlər.

* Cəbrayıl qəzasının 2-ci dairə müfəttişi xəbər verir ki, Balyand kəndi sakinləri Cəfər Ələkbər oğlu və Nəsir Məhərrəm oğlu Vəng kəndinə buğda və duz satmağa getdikləri əsnada yolda ermənilər tərəfindən qarət edilib qətl edilmişlər.

Bu günlərdə müqtədir şairlərimizdən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin **"İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 3*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstaxanası mövcuddur.

*209*

**Qabil diş qayıran**
**Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, “İslamiyyə”nin sağ tərəfində ev nömrə 55.

*295*

**Doktor**
**Doktor Samuil İzrailoviç**
**Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Qoldqor-Fradkinin**
**Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Həkimlərin xüsusi**
**gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Kanyak, çaxır butılkaları alıram**

Səhmdarlar cəmiyyəti Qummel Qardaşları. Mariinski küçədə nömrə 5-15.

Telefon 3-45

*2622 2-1*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır.

Səhər saat 9-11-ə kimi

Axşam saat 5-7-yə kimi.

Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Türk təqvimi**
**Yeni və əski üsul ilə türk təqvimi**

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə “Azərbaycan” qəzetəsi mətbəəsində.

*b-38 10-1*

**“Qənaət”**

Bu yanvarın 3-ündə, cümə günü saat 10-da, Spasski və Çelyayevski küçələrin küncündə, “Qənaət” dükanında, “Qənaət” üzvlərinin iclasi-ümumisi olacaq və hərgah saat 10-adək qanuna müvafiq üzvlər gəlməsə, həmin gün ikinci iclasi-ümumi olacaq saat 12-də və nə qədər üzvlər olsa da qanuna müvafiq hesab olunub məclis açılacaqdır. Müzakirəyə qoyulan məsələlər:

1) İdarənin dokladı;
2) Dükanın bağlanması.

***Müdir və baş mühərrir:***
***Ceyhun bəy Hacıbəyli***

## QEYD VƏ ŞƏRHLƏR

**Məclisi-Məbusan Rəisi həzrətlərinin əmrnamələri**

səh. 1-2. "...1334 sənəsi kanuni-əvvəlin ... günündən...": Məclisi-Məbusan Rəisinin əmrlərində il rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-ci il dekabr ayının müvafiq gününə uyğundur.

səh. 1. "...1334 sənəsi təşrini-saninin ...-dan/-dən": Məclisi-Məbusan Rəisinin əmrlərində il rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1918-ci il noyabr ayının müvafiq gününə uyğundur.

**Bakı, 1 kanuni-sani 1919**

səh. 3. "Türklərin müavinəti Azərbaycan islamlarını və onların istiqlaliyyətini **maddiyyən müvəqqəti olaraq** təmin etdi isə, Müttəfiqlərin böylə müavinət və hüsn-rəğbətləri Azərbaycan istiqlaliyyətinin **mənəvi** cəhətini təmin edib, onun **daimi surətdə** paydar olması üçün bizə ümid verir.": Bu cümlədə "maddiyyən müvəqqəti olaraq" "mənəvi" və "daimi surətdə" sözlər qara verilmişdir.

**Lənkəran faciəsi**

səh. 3. "bə'd-əz xərabiyi-Bəsrə": hərfən: "Bəsrə viran olduqdan son"; bu ifadə "iş-işdən keçdikdən sonra" mənasında işlədilir.

"…erməni makiavellərinin…": İtalyan filosof və yazıçısı Nikkolo Makiavellinin (1469-1527) adı ilə bağlı olan, psixologiyada duyğusuzluq və əxlaqi biganəlik, siyasətdə bütün mənəvi-əxlaqi normlardan kənar qəddarlıq şəklində təzahür edən makiavellizm tərəfdarı olmağı ifadə edir.

səh. 4. "…Lənkəran məbusunun boynunadır…": Azərbaycan Cümhuriyyəti Parlamentində, biri Lənkəran qəzasından (Qulamhüseyn bəy Kazımbəyov), digəri Lənkəran şəhərindən (Səməd bəy Mehmandarov) olmaqla iki millət vəkili var idi.

**Hər işə çarə vardır**

səh. 6. "Siniflər arasına gediniz…": qəzetdə "siniflər" yerinə "səflər" getmişdir.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 9. "…demokratiyanın arzusunu da [qulaq ardına] verə bilməz…": qəzetdə "qulaq ardına" sözü getməmiş və cümlə anlaşılmaz qalmışdır; cümlənin mənasını əsas götürərək, belə bərpa etdik.

**"Azərbaycan gənclərinə" (səh. 12) şeiri üçün lüğət:**

ol: o
tənnaz: nazlı
qurnaz: zirək
səbz: yaşıl
rəxşan: işıqlı, parlaq
şüayi-pak: pak şüa
münəvvər: nurlu
ənvər: nurlu, işıqlı
bak: qorxu
dil: qəlb
söynər: sevinər
sonmaq: sönmək
hiza: səf, sıra

**"Azərbaycan gənclərinə"**

səh. 12. "Türk millətinin hilalı parlar / Teymur ilə Mürtəza belində": buradakı "Teymur" və "Mürtəza" güman ki, Azərbaycanda dağ zirvələrinin adlarıdır. Ehtimal ki, "Teymur beli" deyərkən Borçalı mahalındakı "Teymur dağı", "Mürtəza beli" deyərkən Göyçə mahalındakı "Mürtəza dağı" (yaxud "Murtuz dağı") nəzərdə tutulmuşdur.

"Türk oğluna evçilik yaraşmaz": "Türk oğluna evdə oturmaq yaraşmaz" kimi başa düşülməlidir; şeirin sonrakı misralarından da açıq başa düşülür ki, şair gəncləri vətən uğrunda hərbi xidmətə çağırmaqdadır.

"Çıx avcı xətinə, haydi, marş, marş": "Avcı xətti" (ovçu xətti) düşmənə doğru hərəkət edərkən ən ön cərgədə olan əsgərlərin

səfinə deyilir. Bu misrada “xəttinə” sözü vəznə uyğun gəlməsi üçün “xətinə” kimi oxunmalıdır.

**Bir münasibətlə**

səh. 13. “Ayn”: bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

**Azərbaycanda**

səh. 16. “Gəncə Şah Abbas məscidi həyətində, bazar ertəsi saat 10-da, “Mövludi-nəbi” münasibəti ilə təntənəli bir ictima vaqe olmuşdur...”: Peyğəmbərin mövludu əsasən 12 rəbiüləvvəl günü qeyd olunur. Burada da çox güman ki, 12 rəbiüləvvəl, yəni 16 dekabr bazar ertəsi günü keçirilən tədbirdən danışılır.

“Mürsəl paşa”: Qafqaz İslam Ordusunun komandirlərindən Mürsəl Bakü nəzərdə tutulur.

“Qardaşlar! Sizin əsgərlik vəzifəniz...”: Mövlud mərasimində Qafqaz İslam Ordusu komandirlərindən Mürsəl paşa da iştirak etmişdir. Mürsəl paşanın bu tədbirdə çıxış etməməsi, yaxud onun sözlərinə qəzetdə yer verilməməsi ağlabatan görünmür. “Qardaşlar! Sizin əsgərlik vəzifəniz…”; “Qafqaziyalı qardaşlarıma” sözlərindən də görünür ki, bu nitqi çox güman ki, Mürsəl paşa söyləmişdir.